

**NEMƏT BƏXTİYAR,**
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü,*
*"Qızıl Qələm" media mükafatı laureatı*

# HƏSƏNOVUN MACƏRALARI...

*(hekayə)*

## TƏCRÜBƏ-SINAQ

Uğursuzluq sanki, Həsənovlar ailəsini hədəfə almışdı. "Çox istəməyə başlamışdı onları, yaman əzizləyirdi". Ayaqlarını yenicə bir səmtə qoymaq istəyəndə "qəmbərqulu" haradansa peyda olaraq ayaqlarına ilişməli idi. Bəd günlər bir-birini əvəz edirdi...

Rayon milis idarəsinin rəisi Həsənovun ömürgün yoldaşı həkim idi, mərkəzi xəstəxanada işləyirdi. Kəndçi qızı olsa da səbrli, təmkinli xanım kimi ailəni idarə edirdi. Hər dəfə həyat yoldaşı Həsənov evdən çölə ayağını basan kimi tək səbr gəlirdi. Tez qarşısını kəsib neçə dəfə onu məzəmmət eləmişdi ki, ayağını bir az saxla, səbr keçsin, düşər-düşməzi olar, - demişdi. Həsənov isə ona əhəmiyyət verməzdi, yoluna davam edərdi. Ona görə də həyat yoldaşı həmişə uğursuzluğa düçar olanda, o ki var onu günahlandırırdı. Neçə dəfə demişdi, haqdan çıxma, ədalətsizlik eləmə, insanları incitmə. Elədiyin pisliklərə görə də oğlumuz sənin günahlarına görə əzab-əziyyət çəkir, işləri düz getmir. Hansı işin qulpundan yapışırsa nəhs gəlirdi, bir müəmması ortaya çıxdı. Bir dəfə də bir yetimi sevindir də, nə olar? Bir seyidə nəzir-niyaz ver. Allah-təalaya da xoş getsin, keçsin günahlarından, axı biz də yazığıq, sənə görə, biz də günaha batırıq...

Həsənov isə cavabında demişdi:

-Yox bir, o qalmışdı, gedim mollaya, seyidə nəzir-niyaz verim, adım düşsün "it dəftərinə". Bunları raykom eşitsə, "srazı dədəmə od vurar". Hər tərəf onun agentləridir. Məni bu adla da vəzifədən qovarlar. Raykom nə hava çalır, mən də oynamalıyam. Prokuror onun qohumunu kolxozun iki baş cöngəsini "daş-baş" etdiyinə görə tutdurmuşdu. Buna görə də onu gözümçıxdıya salıbdı. Hər iclasda onu danlayır.

Katib milis idarəsinin rəisi Həsənovu yanına, kabinetinə çağırdı, onun ünvanına nələr demədi:

-Əə, Həsənov, sənin oğluna etimad göstərdim "beveç" çıxdı. Heç bunun cavanlığı da yoxmuş ki! Gedib İstisuda qoşulub cavanlara, yeyib içiblər, bir həftə özünə gələ bilmiyibdi. Mənə çatdı ki, oğlunun iki kor bağırsağı olubdu, birini "soldatlıqda" olanda kəsdiribsən. Yenidən, beş ildən sonra biri də bitibdi. Həkim də güc-bəla ilə tapıb kəsibdi. Yaxşı qurtarıbdı hə, sənin oğlun indi necədi? Sənin o "pyaniska" oğlunu deyirəm! - deyə katib gülümsədi və kabinetin işıqlı, böyük pəncərəsindən görünən dağları seyr etməyə başladı...

-Yoldaş katib, sizdən xahiş edirəm, Allah-təala xatirinə onu bağışlayın, keçin günahından, bir qələt elədi mən atası ilə! - deyə Həsənov iki qat onun qarşısında əyilərək baş əydi.

-Həsənov, Çərkəz kişinin işi nə yerdə qalıbdı? Eşitmişəm prokuror Kazakov çaşıbdı, deyəsən. "Keçinin əcəli çatanda buynuzunu həmişə çobanın çomağına sürtər" - deyiblər. İşə gedən kimi "kepezeni" aç, burax getsin evinə, bir çətən külfəti var. Əə, onun qapısında kolxozun cöngəsindən min dəfə çox, yaxşı kök mal-qarası var. İnanmıram, o, heç vaxt dövlət malına tamah salmaz. Şər atırlar. Mənə çatıbdı ki, həmin cöngələri də Şəlvə dərəsində toyda kəsiblər. Demək oğurlayıblar, oğrunu tapırsan! - deyə katibin üzü daha da sərtləşdi... - Onu rayondan "perik" salaram, o da məni yaxşı tanıyar, hələ gəlib mənə "qılıqlanmaq" əvəzinə... Qaynanam mənə zəng elədi, danışırdı ki, Çərkəzi buraxdır. "Sanksiyanı" da prokuror veribdi, baxarıq! - dedi raykomun katibi...

Təcili, sahə müfəttişini göndər "Bolşevik" kolxozuna, Çərkəzin həyətindən iki baş cöngəni birkalasın, totirovkalasın, qatsın kolxozun malqara fermasının içinə. Akt da yazsınlar ki, milis tərəfindən "anonim" şikayət məktubuna əsasən "Bolşevik" kolxuzunun fermasında qəfləti yoxlama aparıldı və ferma müdiri Çərkəzin mal hesabı düz çıxdı. O biri izahatları da dəyişərsiniz, materialı bağla, arxivə at getsin...

-Baş üstə, yoldaş katib, xahiş edirəm oğlumun bir iş məsələsi yadınızdan çıxmasın! - deyə Həsənov irişdi.

Katib yenidən əsəbləşdi, üzünü çevirib pəncərədən sonsuz kainata baxdı, öz-özünə nə isə gülümsədi, yadına nə isə düşmüş kimi:

-Heyf onu doğan anadan, xanıma böyük hörmətim var. Gedəndə məndən həkimə salam deyərsən. Bəlkə baş həkimə tapşırım şöbə müdiri qoysun, savadlı həkimdir? Mənə soyuq dəyəndə icazə ver katibən gəlsin qonaq evində məni masaj eləsin! - deyə raykom sözünə davam etdi.

Rayon milis idarəsinin rəisi Həsənovun birdən üzünün siması dəyişdi, qaraldı, ağardı və sonradan rəngi özünə gəldi.

-Oğlun da peşə tapıbdı, jurnalist olsa idi, göndərərdim məktəbdə direktor işləyərdi. Bir geoloq iş üçün gəlmişdi, onu göndərdim məktəbdə coğrafiya müəllimi işləsin. Keçən dəfə qəbula bir nəfər jurnalist gəlmişdi, dirənibdir ki, rayonda qəzetdə işləmək istəyirəm. Atası yaxşı kişidi, tanıyıram, qoymayıbdı ki, xahişə mənim yanıma gəlsin, özü gəlibdi, iş axtarır, ürəkli gəncdi, belə kadrdan xoşum gəldi. Mənə belə işguzar, qorxmaz kadr lazımdır. Məsləhət gördüm ki, gəl səni göndərim kənddə müəllim işlə, direktor yeri boşdur, həm ədəbiyyatdan, həm də tarixdən dərs deyərsən, həm də... Balam kəndin nəyi pisdir, get otur kabnetdə. Maarif şöbəsinin müdirinə tapşıraram iki "oklad" maaş verər. İmtahanda da, şagirdlər kənd yerində toyuq-cücədən, eşitmişəm hələ quzu da gətirən olur. Kənd sovetinin sədrinə tapşıraram, ev kirayə edər. Qışda meşədən də odun tədarükü təşkil olunar. Razılaşdı, söz verdim ki, boş yer olanda mərkəzə gələrsən. Rayon mərkəzində nə var e..? Yel əsib, qoz tökülübdü?.. Bir nəfər də gəlmişdi. Təklif elədim ki, gəl səni qoyum təzə idarəyə müdir. Rayon camaatı xeyli vaxtdır ki, televizor verlişlərinə yaxşı baxa bilmirdirlər. Televizor ötürücü stansiyası təşkil eləmişəm. Xaricdən aparatlar gətirib quraşdırıblar. Bir düzəməlli adam tapa bilmirəm ki, müdir qoyam. Nə desə yaxşıdı? Utanmadan, çəkinmədən üzümə deyir ki, mənim televizordan başım çıxmır. Ə, televizor da qəzetin bir tayıdı da. Qayıtdı ki, Həsənovun oğlu kimi, mən də gedim kənddə, kolxozda rüsvay olum? Utandım, qızardım, jurnalistin qabağında, elə mənə bir güllə vursa idi, daha yaxşı olardı. Demək mənəm günahkar, kadrları seçib yerləşdirilməsində səhvlərə yol vermişəm. Bəlkə, sənin oğlunu göndərim televizor ötürücü stansiyasına müdir?...

-Yoldaş katib, mən oğlumu tanıyıram, onun da televizordan başı çıxmır, ora "inciner" lazımdı, o bəlkə öhdəsindən gələ bilər. - deyə Həsənov onun sözünü yumşaltmağa çalışıbdı.

-Ə, televizor onun başına dəysin, kabineti var, texniki, mühəndisi var, hələ söz verirəm rayon mərkəzindən işə aparıb gətirmək üçün "UAZ" da versinlər. Bəlkə, qəzetdə bir boş yer var, jurnalisti başqa işə göndərərəm. İxtisası jurnalist olsa bu saat kənddə, kənd məktəbində direktor yeri boşdur. Yaxşı, bəlkə qəzetə göndərim sənin oğlunu. Redaktor yaxşı kişidi, nə desəm onа əməl edir. Tapşıraram "müğayət" olar. Ədəbiyyat müəllimi idi. Partiya məktəbinə də mən göndərdim. Onun yanında işləyən Vəliyev mal həkimidir. Hüseynov mühəndisdi, bu da sənin oğlun, o da aqronomdu. Ə, bu cavanlar kənddən niyə qorxurlar, bilmirəm?

Yeni işə təyin olunan bala Həsənov işə çatan kimi, rayon qəzetində "mütəxəssisin tribunası" başlığı altında geniş məqalə yazmışdı. Təşəbbüs qaldırmışdı ki, kolxozda boş sahələri kol-kosdan, daş-kəsəkdən təmizləmək lazımdı.

Genişlənmiş torpaq sahəsində, yeni üzüm növləri yetişdirmək haqqında məsələ qaldırmışdı. Bu gənc mütəxəssisin yeni iş metodları, qabaqcıl təcrübəyə, mütərəqqi iş metodlarına geniş yol verilməsini və üzümçülük kolxozunda həyata keçirilməsini xahiş etmişdi. Bu təşəbbüs raykomda büro iclásında müzakirə olundu və bəyənildi.

"Komsomol" kolxozunun sədri Alıyevə tapşırıldı ki, rayon qəzetində çap olunan və irəli sürülmüş müddəaların həyata keçirilməsi üçün kömək etsin.

Tez bir zamanda qəzetin əməkdaşı bala Həsənov kolxozda oldu. Sədrlə ərazini gəzdilər. Həkəri çayının kənarında təcrübə üçün yer müəyyən olundu. Kolxozçular torpaq sahəsini kol-kosdan, daş-kəsəkdən təmizlədilər. Traktorla həmin sahə şumlandı, mala çəkilərək düzəldildi. Bala Həsən qəlbində götür-qoy elədi, fikirləşdi ki; "Adı kitablara düzən məşhur Miçurin bağ-bostanda tər tökdü, üzun müddət zəhmət çəkib, sonradan adı dillər əzbəri olubdu. Mən isə alim-aqronom ixtisası ola-ola, bir iş görə bilməyim? Bazarda gəzəndə üzümləri görmüşdü. Yetişmiş süfrə üzüm sortları onun çox xoşuna gəlmişdi. On yeşik üzüm aldı, beş yeşik şanı, beş yeşik isə kişmiş. Üzüm yeşiklərini maşına yüklədi və kolxoza apardı. Kolxoz sədrinə göstəriş verdi ki, işə başlayır, ona kömək üçün adamlar ayırsın. Qadınlar işə gələndə hər birisi böyük ləyən, tiyan gətirirdilər, üzümlər suda yuyulub təmizləndi. Həsənov göstəriş verdi ki, şanı üzümünün toxumunu ayırsınlar. Ayırdıqdan sonra Mədinə xalanın dili dinc durmadı, qayıtdı ki, "Yoldaş Həsənov, icazə ver, təmizlənmiş üzümün meyvəsini tullamayaq, ondan üzüm mürəbbəsi bişirək. Vallah ona heyfım gəlir, bu məhsulu çölə atmaq olmaz, yaxşı mürəbbəsi olar, çaynan ləzzət verər".

Həsənovun ürəyi yumşaldı, könlündən keçdi ki, üzüm mürəbbəsi ilə çay içmək pis olmaz, nə ləzzətli olardı?! Razılıq verdi. Amma tapşırdı ki, üzümün toxumlarından muğayat olsunlar...

Yuyulmuş üzüm toxumları qurumaq üçün sərildi. Kişmiş üzümün metodu isə Həsənovu bir az çaşdırışdı. O biri üzümün toxumundan təcrübə üçün istifadə etmək olardı. Kişmiş üzümün təcrübəsi üçün xeyli fikirləşdi.

Şanı üzümündən təmizlənmiş toxumları malqara peyninə qarışdıraraq istixanaya səpdilər. Həsənov göstəriş verdi ki, kişmiş üzümün də toxumunu gilə-gilə ayırıb, mal-qaranın peyininə qarışdırsınlar, istixanaya səpsinlər. Səpilən təcrübə-sınaq işlərindən sonra su səpilməsini özü həyata keçirdi ki, ürəyi tam arxayın olsun...

Həsənov hər gün işə gedəndən sonra, boş vaxtlarında təcrübə sahəsinə gələrdi, üzümün toxumlarının cücərməsini səbirsizliklə gözləyirdi. Hər dəfə Mədinə xalaya möhkəm-möhkəm tapşırırdı ki, şitillərdən müğayət olsun.

Xeyli vaxt keçmişdi. Kişmiş üzüm üçün istixanada cücü-mücülər, qarışqalar, böcəklər görünməyə başladı. Hərdən bal arıları da uçub gəlirdilər, torpağın üstə qonub vızıldaşırdılar. İstilikxanada başqa aləm vardı. Ərazidə nə qədər həşəratlar, böcəklər vardısa hamısı gəlmişdilər. Bu mənzərə Həsənovu bərk dilxor eləməyə başladı. Mədinə xala təcrübəli kolxozçu idi. Həsənovun təcrübəsindən onun da ağlı bir şey kəsmirdi. Bir gün dedi:

-Ay oğul, istixanada kişmiş üzümün cücə-mücələr, qarışqalar, dağıtdılar onun şirəsinə də bu həşaratlar yığışdılar. Axı Miçurin başqa yerdən toxumlar gətirib Rusiyada əkib becərib yetişdiribdir. Sən bilmirsən kişmiş üzümünün toxumu olmur? Get onun qələmini kəs gətir, qələm vasitəsi ilə çoxalt, onda yetişdirmək olar.

Həsənov ta bir şey deməyib maşına əyləşdi, yolboyu fikirləşirdi. Axı Mədinə xala düz deyirdi, kişmiş üzümünün toxumu olmur. Şanı üzümün toxumlarının yavaş-yavaş cücərməsi heç olmasa ona təsəlli verdi. Təcrübəsinə çəkdiyi əzab-əziyyətlər hədər getməmişdi. Evdə də rahatlıq tapa bilmədi...

Ürəyi şanı üzüm toxumlarının yanında qalmışdı. Onların cücərməsini səbirsizliklə gözləyirdi. Hələ cücərən toxumları da saymışdı. Fikirləşirdi ki, sağlıq olsun, həmin pöhrələri gələn il sahələrə köçürəcəkdi. Ta hər gün kolxoza gedib, istixanaya baxandan sonra ürəyi rahat olurdu. Hərdən bitmiş pöhrələrə əlləri ilə sığal çəkərdi, onları oxşayırdı, boylarını sevərdi.

Mədinə xalanın oğlu əsgərlikdən gəlməli idi. Ona görə də, o qapıda qoyun-keçinin içindən erkək bir çəpişi yaxşı bəsləyirdi ki, oğlu gələn kimi kəssin. Hələ elə öyrətmişdi ki, Mədinə xalanı görən kimi onun yanına gəlirdi. O da cibindən əlinə nə keçsə idi, ona yedizdirərdi. Bir neçə dəfə arxasına düşüb iş yerinə qədər də gəlmişdi.

Bu dəfə çəpiş Mədinə xaladan qabaq təcrübə-sınaq sahəsinə gəlmişdi. İstixanada təzə cücərmiş nə vardısa hamsını otlamışdı. Yeyib doyandan sonra istixanada oyan-buyana atılıb-düşürdü, oynayırdı.

Mədinə xala işə gəlib təcrübə-sınaq istixanasına daxil olanda, qəflətən mat-məəttəl qaldı. Bəslədiyi çəpiş gənc mütəxəssis Həsənovun zəhmətini puç eləmişdi.





## NEKROLOQ

Rayon qəzetinin əməkdaşı Bala Həsənov bərk yorulmuşdu. İşdən evə gələn kimi əl-üzünü yudu, dəsmalla quruladı, sonra süfrənin arxasına keçdi, anasını səslədi:

-Ay ana, bir çay ver! - dedi.

Anası o saat çayı gətirib onun qarşısına qoydu.

-Hə, necəsən, ay oğul? İşlərin necə gedir? Deyəsən, möhkəm yorulmusan? Dincəl, dincəl.

Araya sükut çökdü. Anası xeyli vaxt oğluna fikir verdi. Birdən dilləndi:

-Ay oğlum, ta böyüyüb yekə kişi olmusan, bu vaxta kimi heç bir qız görməmisən, ona ürək sözü deməmisən? Heç xoşuna gələn birini gözaltı eləməmisən? Gedək onu sənə alaq. Nə vaxta kimi subay qalacaqsan? - Anası bunu deyib məzəmmət etdi.

-Ay ana, ayrı sözün yoxdu? Başım işə o qədər qarışıbdı ki, vaxt tapa bilmirəm, vaxtım yoxdu.

-Ay oğlum, sevgi, məhəbbət, evlənmək məgər vaxta baxır, vaxt gözləyir? Mənə de görüm, hansı ünvana, hansı evə gedim. Bu saat mənə deməlisən, kimin qapısını dabanından çıxardım...

-Ay ana, hələ sevgi, məhəbbət, evlənmək vaxtı deyil, qaçmır ha...

-Yaş öz işini görür, ay oğul. Bəs o vaxt raykomda işləyəndə elə bir səs qulağıma gəldi çatdı ki, kiməsə meşədən gül yığıb gətirmisən, vermisən, o kimdi?

Bala Həsənovun yadına nə isə düşmüş kimi qızardı, bozardı, keçmiş xatirələr yadına düşdü, ancaq:

-Yox, ay ana, heç nə olmayıb. - dedi və o an gözlərinin önündən kino lenti kimi sevgi macəraları çözələnməyə başladı.

...Bala Həsənov raykomda işləyəndə kolxoza getmişdi. Arxaya dönəndə, yolun kənarında kənd uşaqları meşədən bənövşə, nərgizgülü yığıb gətirib satırdılar. Yol yorğunluğu idi. Maşını yolun kənarında saxladı, düşüb uşaqların yanına getdi, çiçəklərə bir-bir tamaşa elədi və soruşdu:

-Bənövşənin dəstəsi neçəyədi? Nərgizgülünün dəstəsi neçəyədi?

Uşaqlar bir ağızdan:

-İkisi bir manat! - dedilər.

Bir dəstə bənövşə, bir dəstə də nərgizgülü alıb arxaya döndü, onları maşının oturacağının üstünə qoydu və oxşamağa başladı. Bənövşə ilə nərgizgülünün dəstələrini arxayın, səliqə ilə açıb bir yerə qarışdırdı. Bir yerdə çiçək dəstəsi çox gözəl çıxmışdı. Həsənovun çox xoşuna gəlmişdi çiçək dəstəsi. Onu iş yoldaşı, raykomun şöbə müdiri Zeynəb xanıma bağışlamaq fikrinə düşdü. Ondan xoşu gəlirdi. Hələ ürəklənib ona nə isə deməyə cürət eləmirdi. Bir dəfə təsadüfən sənədlərin qovluğunu ona verəndə əli onun əlinə dəydi. Zərif qız əlini qovluğa sıxdı və gözlərinə baxdı. Baxışları toqquşdu. Zeynəb xanımı elə bil cərəyan vurdu, tez əlini çəkdi, qovluq isə yerə düşdü. Həsənovun üzü qızarmışdı, pörtmüşdü.

-Bağışlayın, Zeynəb xanım, bağışlayın. - deyə döşəməyə düşən kağızları yığmaq üçün əyilmişdi.

Zeynəb xanım da döşəməyə sərilmiş kağızları toplamaq üçün əyilmişdi. Həsənovun başı onun başına toxunmuşdu. Hər ikisi başlarını yuxarı qaldıranda yenə mənalı-mənalı baxışları toqquşmuşdu. Baxışlarında sanki, acizanə deyilirdi ki, məni sev, mən də səni sevim. Hər ikisinin ürəyindən keçən hislər də baxışlarında sezilməyə başladı. Həsənov yenə üzrxahlıq elədi:

-Siz allah, bağışlayın, Zeynəb xanım. - dedi, kağızları yığıb qovluğa qoydu və utancaq bir halda Zeynəb xanımın iş otağından çıxdı.

O vaxtdan, onların bir-birlərinə mənalı, sevgi dolu baxışları Həsənova dinclik verməməyə başlamışdı. Hər dəfə yadına düşəndə sanki, gözəl təbiətin qoynunda hər ikisi güllərin, çiçəklərin arasında idilər. Bu mənzərə Həsənovun heç bir vaxt yadından çıxmırdı, unuda bilmirdi. Elə hey Zeynəb xanımla birlikdə təbiəti seyr etmək onun gözlərinin qabağından keçirdi.

Yolun kənarında çiçək satan kənd uşaqlarının səs-küyü onu fikirdən ayırdı. Bənövşə ilə nərgizgülünü alıb, səliqə ilə neçə dəstə yığıb bağlaması yadına düşmədi. Fikirləşdi ki, təzə tər çiçəkləri aparıb Zeynəb xanıma versə, görən necə olardı? Nə deyərdi? Əşi, nə deyər, desin də. Yox ey... birdən çiçəkləri xoşlamadı, aldı üzünə çırpdı, onda?

Yenidən ürəkləndi. Çiçək dəstəsini qəzetə bükdü və işə gəldi. Zeynəb xanımın iş otağının qapısı açıq idi. Həsənov cəld kabinetə daxil oldu. Şöbə müdiri Zeynəb xanımın iş otağında əlavə stol qoyulmuşdu. Onun üstündə su qrafini və su içmək üçün boş stəkan vardı. Həsənov stəkanı su ilə doldurdu və çiçəkləri də içinə qoydu. Kabinetdən çıxmaq istəyəndə Zeynəb xanım qapıda göründü...

-Hə, Həsənov, gəl görüm, nə sözün vardı?

-Yox, elə-belə.

-Necə yəni elə-belə? Gəl görüm, sözlü adama oxşayırsan.

-Kolxoza getmişdim. Yol üstü Turşsu bulağından su içdim. Bahar gəlibdi, təbiət təzə oyanıbdı, meşədə gül gülü, çiçək də çiçəyi çağırırdı. Elə, təzə bənövşə, nərgizgülü dərdim, sizin üçün də gətirdim.

-Necə? Həsənov, mənim üçün gül-çiçək yığıb gətirmisən? Əhsən, çox sağ ol, Həsənov, nə diqqətcil oğlansan. Mən sizi belə bilməzdim. Sən haradan bildin ki, mənim bənövşədən, nərgizgülündən xoşum gəlir?

Həsənov kənddə kolxoza gedəndə özü ilə həmişə fotoaparat da götürərdi. Maraqlı anlar olanda tez şəkillər çəkərdi. Rayonda keçirilən tədbirlərdə Zeynəb xanımın da foto şəkillərini çəkmişdi.

Həsənovun əskisi iyli idi. Az bir vaxtda hamı xəbər tutdu ki, bəs Həsənovun raykomun şöbə müdiri Zeynəb xanımla eşq, məhəbbət macəraları olubdu.

Zeynəb xanım Həsənovu yanına çağırdı.

-Həsənov, bu nə məsələdi, bu nə söz-söhbətdi? Rayonda söz gəzir ki, siz mənə eşq elan etmisiniz, mən də etiraz etmişəm. Heç bizə yaraşan söz-söhbət deyildi axı, mənim sizə bir işçi kimi hörmətim vardı. Siz mənə çiçək dərib gətirdiniz, mən də qəbul etdim. Sizin xətrinizə dəymədim. Olmaz, bir də belə hərəkətlər təkrar olunmasın. Mən axı sizdən neçə yaş böyüyəm.

-Yaşın nə fərqi var, Zeynəb xanım? Mən sizə deməmişəm, amma indi deyirəm. Mən səni sevirəm, səndən xoşum gəlir, ailə qurmağa hazıram. Bu mənim qəti fikrimdi. - deyə Həsənov Zeynəb xanımın sözünü ağzında qoydu.

-Çıx otaqdan, Həsənov, bir də gözümə görünmə.

Bax belə olmuşdu Həsənovun sevgi macərası. O gündən sonra elə bil qurbağa gölünə daş atdılar. Söz-söhbət də kəsilmişdi.

Rayon qəzetinin əməkdaşı Həsənovun kolxozda apardığı elmi təcrübəsi hamının maraq dairəsində idi. Təzə qəzet nömrəsinin çap olunmağını səbirsizliklə gözləyənlər də olurdu. Oxucular fikirləşdirdi ki, yəqin təzə sayda nə isə bir maraqlı yeniliklərlə qarşılaşacaqlar.

Həsənov rahatlıq tapa bilmirdi. Gecə də, gündüz də fikirləşirdi, yeni bir şey axtarırdı. Kolxozlarda geriliyin aradan qaldırılması üçün yeni yollar axtarırdı. Götür-qoy edirdi, dağı arana köçürürdü, aranı da dağa... Götür-qoy edirdi ki, nə yolla olursa olsun, bir işıq ucu tapmaq lazımdı. Öz aləmində idi. Fikirləşirdi, özlüyündə yaddaşında planlar cızırdı, qeydlər aparırdı.

İş yoldaşı, mal həkimi ixtisası olan, rayon qəzetinin əməkdaşı Əliyev yeni işə təyin olunan Həsənovu gözü götürmürdü. Onu görən kimi, üzdə ona yaxşı görünmək üçün üzünə gülümsəyirdi. Ancaq daxilində bağırsaqlarını elə bil xəncər doğrayırdı. Həm də yaxşı bilirdi ki, rayon milis idarəsinin rəisi ata Həsənovla raykomun katibi arasında möhkəm dostluq əlaqələri vardı.

Birdən raykomdan çağırış gəldi ki, bəs rayon qəzetinin redaktoru Qaraşov şöbə müdiri Zeynəb xanımın yanına gəlsin. Zeynəb xanım Qaraşovu görən kimi:

-Xoş gəlmisiniz, yoldaş Qaraşov.

-Çox sağ olun...

-Buyurun, əyləşin. Bağışlayın, sizə zəhmət verdim. Gərək bağışlayasınız. Həsənov, elə bilirəm, sizdə təzə işləyir.

-İki, üçüncü aydı.

-Necə işçidi? Bacarığı, iş qabiliyyəti, özünü aparması?

-Zeynəb xanım, çox qoçaq oğlandı. İşgüzardı, gələndən kolxozların yaxşı gəlirlə işləməsi üçün yeni-yeni maraqlı təşəbbüslər irəli sürübdü. Elə bilirəm ki, hər işə bir yenilik ələmək istəyir. Qəzetimizin daha da maraqlı çıxmasına böyük həvəs göstərir. Tapşırılan işlərin öhdəsindən bacarıqla gəlir, narazılığım yoxdur. Bağışlayın, nə məsələdi, bilmək olar? - deyə Qaraşov təəccüblə soruşdu.

Zeynəb xanım əlindəki məktubu ona tərəf uzatdı.

-Buyurun, tanış olun. Kimsə ondan, anonim məktub yazıbdı.

Qaraşov məktubu diqqətlə oxumağa başladı. "Həsənov, savadsızdı, kənd təsərrüfatı mütəxəssisidir, aqronomdur. Məqalələri başqa qəzetlərdən, kitablardan köçürür. Əxlaqsız hərəkətlərlə məşğul olur. Küçədən keçən qızlara, qadınlara söz atır. Onların arxasınca baxır və başqa-başqa hərəkətlər..."

-Zeynəb xanım, Həsənov raykomda da işləyibdi, onun əxlaqına, tərbiyəsinə o sözlər yaraşmır axı. O, yaxşı oğlandı. Elə bilirəm ki, bu gözügötürməzlikdən başqa bir şey deyildir. - deyə





Qaraşov fikrə daldı.

-Yaxşı, onda məktubu götürün, maraqlanın, gizlicə araşdırın, öyrənin görüm sizin kollektivdə bu işlərlə kim məşğul olur. Ancaq bunu heç kim bilməməlidir.

Səhərisi gün adəti üzrə hər bir işçi öz yerində idi, hamısı gəlmişdi. Redaktor qəzetin əməkdaşı Əliyevi yanına çağırdı və dedi:

-Əliyev, "Jdanov" adına kolxozdan yaxşı tərifnamə yazmısan, nöqsanlar haqqında heç bir şey qeyd etməmisən, mal-qaraya baxım yaxşı təşkil olunmadığı halda, başqa sözlər yazmısan. Rayon səviyyəsində ən aşağı göstəricilər olan təsərrüfatlardan biridir. Yəqin ki, kolxoz sədri sənə yaxşı baxıb ki, belə də yazmısan?

Əliyev əlini cibinə saldı və dedi:

-Bəli, düz buyurdunuz, hörmət elədi, bunu da sizə göndəribdi.

-Əliyev, tez kabineti tərk et. Sən rayon qəzetini kolxoz bazarına çevirmisən, bir daha axırıncı dəfə xəbərdarlıq edirəm, belə hallara yol versən, özün könüllü ərizəni yaz, çıx get, kolxozda mal həkimi işlə. Səndən başqa-başqa sözlər gəlir çatır ha... Sənə nə pislik etmişəm, kollegiyanın qərarı ilə işdən azad etdilər, mən səni işə qəbul etdim. Kolxozun sədri Heydərov iki yüz kiloqram diri çəkisi olan cöngəni məcburi kəsdirib, pay-püş edibdi. Sənə az ət payı verdiyinə görə, sən o boyda cöngəyə ölüm aktına ölümün səbəbinin diaqnozuna nə yazmısan? Latın dilində yazmısan ki, kabab xəstəliyindən ölmüşdür. Bu da kolxozun növbəti təftişi, yoxlaması zamanı üstü açılıb. Hamınızı da yarıtmaz işlərinizə, dövlət əmlakının qorunub saxlanmasında verdiyiniz səhvlərə görə atdılar bayıra. Sənə nə pisliyim dəydi? Gətirdim qoydum işə, səhv elədim? İşlərində dönüş yaratmasan, bu qaydada işlərinə davam etsən, arada söz aparıb, söz gətirmək, xainlik, paxıllıq xasiyyətlərini dəyişməsən özünə başqa iş tapmalı olacaqsan, Əliyev! - deyə redaktor əsəbləşdi.

Əliyev qızardı, bozardı, başını çiyinlərinə qısdı.

Raykomun şöbə müdiri Zeynəb xanımın atası Hümbət kişi vəfat etmişdi. Eşidən, bilən dost-tanışlar başsağlığına getdilər. Rayon qəzetinin redaksiya heyəti də dəfndə iştirak etmişdi. Redaktor Qaraşov növbəti çap olunacaq qəzet nömrəsi üçün materialları oxudu və imza etdi. Məsul katib Bəşirov təzə qəzetin materiallarını yerbəyer elədi, maketini tərtib etdi. Axırıncı səhifədə bir neçə nekroloq da yerləşdirdi. Korrektor işləri də yerbəyer idi. Qəzetin maketi mətbəəyə göndərildi, nümunə çap edildi və imzalandı. Növbətçi Əliyev nekroloqda əlavələr etdi: "Rayon qəzetinin redaksiya heyətinin üzvləri iş yoldaşı Həsənova qayınatası Hümbət kişinin (qızı Zeynəb xanıma görə) vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər".

Nümunə kimi on-on beş ədəd təzə qəzet çap olundu və yenidən növbətçi Əliyev başsağlıqların mətnini qaydaya saldı. Çapçı Vəliş dayı təzə qəzetin nömrəsini hazırladı. Saydı və aparıb məsul katibin kabinetinə qoydu. Səhər tezdən işçilər gəlib təzə qəzeti öz ünvanlarına göndərməli idilər.

Həsənov hər gün hamıdan tez işə gələrdi. Bu gün də tezdən gəlmişdi. Məsul katibin kabinetinə daxil oldu və təzə qəzetdən özü də üst hissəsindən bir neçəsini götürdü. Təzə nömrədə çap olunan məqalələri nəzərdən keçirdi. Axırıncı səhifədə nekroloqları oxudu. Gözlərinə inanmadı, təkrar bir də oxudu və qışqırdı:

-Yoldaş Qaraşov, təcili göstəriş verin, yayımı dayandırsınlar, qəzeti heç bir ünvana göndərməsinlər. Böyük səhv getmişdir.

Səsə hamı gəlmişdi. Həsənov həmin qəzetləri qucağına alıb redaktorun otağına qaçdı və:

-Yoldaş Qaraşov, bu nə biabırçılıqdı? Bu nə özbaşınalıqdı, belə başsağlığı olar? Bunu eşidən, bilən olar, oxuyan olar, onda bizə nə deyərlər? Rayon qəzetinin redaksiya heyəti mənə, qaynatam Hümbət kişinin ölümü ilə, özü də mənim adıma başsağlığı verir. Axı, mən hələ evlənməmişəm, o kişi nə vaxt mənim qaynatam olubdu?

Redaktorun səsi eşidildi:

-Məsul katib Bəşirov, növbətçi Əliyev haradadır?...

Hər ikisi başı alovlu kabinetə daxil oldular.

Redaktor Qaraşov soruşdu:

-Bəşirov, hansı yazıda səhv olub?

-Yoldaş Qaraşov, hər bir yazı düzgün, öz qaydasında yığılmış və çap olunmuşdur. Hansı yazıdan söhbət gedir? Mənim xəbərim yoxdur.

Həsənov əlindəki qəzetləri stolun üstünə qoydu. Hər ikisi çiyinlərini çəkdilər.

Redaktor isə başsağlığı-nekroloqu bir də oxudu...